

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 27 noyabr 2024-cü il №89 (2900) https://mod.gov.az Qiymәti 30 qəpik


## Prezident İlham Əliyev Kəlbəcər Şəhəri Günü münasibətilə paylaşım edib

Prezident İlham Əliyev Kəlbəcər Şəhəri Günü münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Zəfər tariximiz - Kəlbəcərin Ermənistan işğalından azad edilməsindən dörd il ötür".

## Azərbaycan Respublikası vətəndaşlarının 2025-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə qərara alıram:

1. 2007-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1990-2006-cı illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2025-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2025-ci il yanvarın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 noyabr 2024-cü il

## Döyüş növbətçiliyi ən qürurverici xidmətdir



*İkinci Qarabağ müharibəsinə kimi payız küləklə gələrdi, bu ilin payızı bu tərəflərə çisəklə gəlib. Güzarımız bizi nəmlənmiş yollarla gah tutulan, gah açılan ayamın içindən keçirib yüksəkliklərə - ucalıqlara aparır. Yollar yaşdı, dikdirdi, hamımızın düşüncələrində bu yüksəklikdə döyüş növbətçiliyi aparan əsgərlərin qətiyyətini, hərbi xidmətə (Vətənə!) sədaqətini duymaq, görmək, qürurlanmaq niyyəti var. Kapitan Nurlan Əliyevin dediyi kəlmələr hamımızı duyğulandırır: Neçə aylar əvvəl bu mövqedə bir-iki gündən sonra tərxis ediləcək əsgər məndən xahiş etmişdi ki, növbədənkənar döyüş növbətçiliyi aparmasına icazə verim. Maraqla ona baxmışdım. "Komandir", - demişdi. "Sonuncu döyüş növbətçiliyimi şəhidlərimizin ruhu ilə birlikdə aparmaq istəyirəm. Hərbi xidmətimdən əvvəl də, hərbi xidmətimdə də onların ruhunu ruhumun qardaşı bilmişəm. Qoy son döyüş növbətçiliyim, hərbi xidmətimin sonu onların ruhunun hərbi xidməti olsun...". Həmin gün mövqedə doğma bir ovqat yaşanılmışdı.*

Həmin ovqatı bu gün əsgərlərin əhatəsində biz də yaşayacağıq...

Baxışlarımız hərdən seyrək dumanlıqlardan ümid işığı kimi görünən Günəşin zərif telləriylə süslənmək istəyir. Süslənir də. Çisəyin kəsməsini də, dənəbir-dənəbir yağan qarın dayanmasını da, gözəlim Günəşin dumanlığı dağıtmasını da, uzaqlarda görünməzliyə bürünmüş ərazilərin aramla görünməsini də bu yüksəklikdə döyüş növbətçiliyi aparan Azərbaycan əsgərinə təbiətin ehtiramı bilirik. Gözəl ehtiramdı, düşündürücü ehtiramdı, yaşadılası ehtiramdı. Bir azdan əsgərlərin əhatəsində 2020-ci ilin payızı xatırlanılacaq - ordumuz tarixi Zəfər qazandı, 2023-cü ilin payızı xatırlanılacaq ordumuz Zəfərdən sonra Zəfərin qüdrətinə layiq qələbə qazandı, Azərbaycanımızın ərazi bütövlüyü tam bərpa olundu...

Aşırımın sonunda əsən rüzgarın, qarın-yağışın, tənhalığın qurutmağa, yaşamını tükəndirməyə gücü çatmadığı tək ağac görünür. Tək ağacdan bir qədər yuxarıda mövqemizdi. Mövqenin qənşərində gəzişən hərbi qulluqçunun yerişində inamdan dikələn qürur qətiyyətin, məhəbbətin qürurudu. 2020-ci il sentyabrın 27-nə kimi ön xətdə gördüyüm qürurları xatırladan qürurdu. Bir azdan döyüş növbətçiliyinə gedən, döyüş növbətçiliyi aparan, döyüş növbətçiliyindən qayıdan əsgərlərlə söhbətləşəcəyik...

Əsgərlərin əhatəsindəyik.

**(Ardı 3-cü səhifədə)**



6-cı səhifədə

Növbətçiliyin düzgün təşkili vacib amildir



6-cı səhifədə

“Dostluğumuzu Vətənə sevgi yaradıb...”



7-ci səhifədə

Şəhid zabitin doğum günü qeyd olundu

# "COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də sosial şəbəkə hesablarında "COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!" sərlövhəsi ilə paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir:

"Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a ev sahibliyi etməkdən şərəf duydu.

Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımı hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək.

Biz 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq.

Genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu.

"Yaşıl dünya naminə həmrəylik" şüarını rəhbər tutan Azərbaycan bitərəf vasitəçi kimi çıxış edərək danışıqların qərəzsiz aparılması üçün bütün imkanları yaratdı. Bütün proses boyu biz inkişaf etməkdə olan ölkələrin, xüsusilə kiçik ada dövlətlərinin və ən az inkişaf etmiş dövlətlərin ehtiyaclarını nəzərə alan nəticə əldə etməyə çağırış etdik, çünki onlar iqlim dəyişmələrinin ağır yükünü daşıyırlar və ekzistensial təhlükə ilə üzləşirlər. Biz, həmçinin müstəmləkə idarəçiliyi ilə daha da ağırlaşan ekoloji problemlərdən əziyyət çəkən xalqlar və regionlar ilə həmrəylik nümayiş etdirdik.

Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulması üçün səylərini əsirgəmədi və bunun nəticəsində dünya tarixi Bakı nailiyyətinə şahid oldu.

Bakı COP-da İtki və Zərər Fondu tam işlək vəziyyətə gətirildi. Biz, həmçinin karbon bazarına dair çoxdan gözlənilən 6-cı maddənin tam işlək vəziyyətə gətirilməsinə nail olduq.

Ən əsası, Bakı COP 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 300 milyard ABŞ dolları təmin etmək üçün qarşıya yeni qlobal məqsəd qoyan Yeni Kollektiv Kəmiyyət Məqsədinin (NCQG) şahidi oldu. Bu razılaşma inkişaf etməkdə olan ölkələrə iqlim dəyişmələrinin fəsadları ilə mübarizədə kömək edəcək.

Mən Bakı nailiyyətini çoxtərəfliliyin təntənəsi kimi qiymətləndirirəm. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və mən inanıram ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək. Mən COP29-a gedən yolda Azərbaycana göstərdikləri dəstəyə görə bütün Tərəflərə, Birləşmiş Millətlər Təşkilatına və UNFCCC-yə minnətdarlığımı bildirirəm.

# Müdafiə naziri: "Ali Baş Komandanın ordumuzun gücünü, hərbçilərimizin peşəkarlığını, fədakarlığını bir daha qeyd etməsi şəxsi heyəti daha da ruhlandırır və istənilən təxribatlara qarşı məsuliyyətimizi artırır"

*Noyabrın 23-də Müdafiə Nazirliyində xidməti müşavirə keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə videobağlantı formatında keçirilən iclasda nazir müavinləri, qoşun (qüvvə) növləri komandanları, Əlahiddə Ümumqoşun Ordunun komandanı, Milli Müdafiə Universitetinin rektoru, baş idarə, idarə rəisləri, hərbi birlik və birləşmə komandirləri iştirak ediblər.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqlar iştirakçılara çatdırılıb.

Xidməti müşavirə zamanı Azərbaycan-Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti və qoşun xidmətinin təşkili təhlil olunub.

Müdafiə naziri qoşunların döyüş qabiliyyətinin daha da yüksəldilməsi, ayıq-sayıqlığın artırılması, eləcə də döyüş növbətçiliyinin düzgün təşkil olunması ilə bağlı müvafiq göstərişlər verib.

Şəxsi heyətin bilik və bacarıqlarının təkmilləşdirilməsi, peşəkarlığının artırılması məqsədilə müxtəlif qoşun növlərinin cəlb olunması ilə keçirilən təlimlərin, müsabiqə və yarışların, eləcə də hərbi vəzifəlilərin təlim toplanışlarının intensivliyinin və keyfiyyətinin daha da artırılmasının vacibliyi qeyd olunub.

Ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, aparılan uğurlu islahatlar və onların müsbət nəticələri müşavirədə diqqətə çatdırılıb. Azərbaycan Ordusunun arsenalına yeni qəbul edilən silah, texnika və aviasiya vasitələrinin döyüşdə effektiv tətbiqinin öyrənilməsinin əhəmiyyəti xüsusi vurğulanıb.

Təhsil sahəsində həyata keçirilmiş tədbirlərin müsbət nəticələrini qeyd edən müdafiə naziri bölmələrin yüksək bilik və bacarıqlara malik, peşəkar heyətlə komplektləşdirilməsi istiqamətində görülən işlərlə bağlı aidiyyəti üzrə konkret tapşırıqlar verib.

Müşavirədə Azərbaycan Ordusunda hərbi intizam qaydalarına ciddi riayət edildiyi, mövcud intizam göstəricilərinin yüksək olduğu diqqətə çatdırılıb.

Qeyd edilib ki, Azərbaycan Ordusunda şəxsi heyətin gündəlik məişət şəraitinin, hərbi kollektivlərdə qarşılıqlı münasibətlərin, komandir və rəis heyətinin tabelikdə olanlara qarşı diqqət və qayğısının, həmçinin nizamnamə tələblərinə uyğun hərbi nəzakət qaydalarının real vəziyyətini öyrənmək məqsədilə mütəmadi yoxlamalar keçirilib və aşkar olunan neqativ hallara qarşı ciddi tədbirlər görülüb.

Daha sonra qış mövsümü tədbirlərinin gücləndirilməsinin, xüsusilə dağlıq ərazilərdə, sərt iqlim şəraitində yerləşən bölmələrdə ərzaq, əşya, yanacaq, odun ehtiyatının normalara uyğun saxlanmasının, şəxsi heyətin sağlamlığına diqqət yetirilməsinin, mövsümi xəstəliklərdən qorunma və isti geyimlə təmin edilməsinin zəruriliyi bildirilib.

Nazir Ali Baş Komandanın müvafiq tapşırıqlarına əsasən şəxsi heyətin xidməti və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərin plana uyğun davam etdirilməsi ilə bağlı göstərişlər verib.

Prezident İlham Əliyevin Zəfər parkının açılışı zamanı müraciəti və digər çıxışlarından irəli gələn tapşırıqlara toxunan müdafiə naziri ordumuzun döyüş qabiliyyətinin ən yüksək səviyyədə saxlanması üçün dövlət başçısı tərəfindən bütün imkanların yaradıldığını qeyd edib.

Müdafiə naziri bildirib ki, Ali Baş Komandanın ordumuzun gücünü, hərbçilərimizin peşəkarlığını, fədakarlığını bir daha qeyd etməsi şəxsi heyəti daha da ruhlandırır və istənilən təxribatlara qarşı məsuliyyətimizi artırır.

General-polkovnik Z.Həsənov qoşun xidmətinin təşkilinə, şəxsi heyətin döyüş hazırlığı və fərdi peşəkarlığına xüsusi diqqət yetirilməsi ilə bağlı aidiyyəti şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

Sonda müdafiə naziri döyüş növbətçiliyinin aparılması, eləcə də gündəlik xidməti fəaliyyət zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması və şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin hər zaman yüksək səviyyədə saxlanılması barədə müvafiq göstərişlər verib.

# Azərbaycan-İran xüsusi təyinatlılarının "Araz-2024" birgə taktiki təlimi keçirilir







İran İslam Respublikasının Ərdəbil vilayətinin Aslandüz yaşayış məntəqəsi yaxınlığında Azərbaycan Ordusu Quru Qoşunlarının və İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEAH) Quru Qoşunlarının xüsusi təyinatlıları ilə "Araz-2024" birgə taktiki təlimi keçirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimdən əvvəl hər iki ölkənin nümayəndə heyətlərinin yüksək səviyyəli üzvlərinin iştirak etdiyi komanda-qərargah iclasında təlimin mərhələləri və epizodların icra olunması üzrə ardıcıllıq müəyyənləşdirilib, təhlükəsizlik qaydaları çatdırılıb.

Daha sonra "Araz - 2024" birgə taktiki təliminin açılış mərasimi keçirilib. Mərasim başa çatdıqdan sonra hərbi qulluqçular təlimin keçiriləcəyi ərazi ilə tanış olublar.

# Döyüş növbətçiliyi ən qürurverici xidmətdir



(Əvvəli 1-ci səhifədə)

Kapitan Nurlan Əliyev xırdaca narahatlıqla boz yapıncısı çiyinlərindən sürüşmüş dağlıq əraziyə baxır, sonra döyüş növbətçiliyi aparan əsgərlərə. Belə mahiyyətli, istiqanlı baxışları İkinci Qarabağ müharibəsindən əvvəl də görmüşdüm, İkinci Qarabağ müharibəsində də, Azərbaycan Ordusunun qazandığı tarixi Zəfərdən sonra da. Hamısında boy göstərən sevgi olub. Bu baxışları həmişə Azərbaycan Ordusunun zabitinin Azərbaycan əsgərinin məsuliyyətinə, dövlətə sədaqətinə, döyüş növbətçiliyinə (deməli, döyüş hazırlığına) inamının (və sevgisinin!) ifadəsi bilmişəm.

- Döyüş növbətçiliyi döyüş hazırlığının, döyüş hazırlığı hərbi xidmətin şərtidir. Əsgərlərimiz döyüş hazırlığını məsuliyyətlə aparırlar, deməli, məsuliyyətlə xidmət edirlər. Qoşunlarda xidmətə başlayan hər əsgər döyüş növbətçiliyinin mahiyyətini dərk etməklə hərbi xidmətin mahiyyətini daha əhatəli dərk edir. "Mən hərbi xidmətə iki dəfə başlamışam, bir xidmətimin ilk günü, bir də ilk dəfə döyüş növbətçiliyinə çıxdığım gün...", - əsgərlərimizdən biri belə demişdi. Döyüş növbətçiliyi əsgərin düşmənlə təkbaşına məsuliyyət, sayıqlıq, sevgi, qətiyyət döyüşüdü. Digər mövqelərdə olduğu kimi, bu mövqedə də Azərbaycan əsgəri həmişə qalib gəlib...

Əsgər Nihad Hüseynov deyir ki, döyüş növbətçiliyi təlimatdan başlayır. Komandirimizin tövsiyələri yaddaşımdaydı, ilk dəfə döyüş növbətçiliyinə bu yaddaşla və əsgəri məsuliyyətlə getmişdim. Etiraf edirəm ki, əsgər olmağın qürurunu onda elə gözəl yaşadım ki!..

Əsgər Tural Məmmədov əsgər yoldaşının sözünə qüvvət kimi deyir:

- Həm də demişdilər ki, döyüş növbətçiliyi hərbi xidmətin tərkib hissəsidi, düşməni nəzarətdə saxlama prosesidi. Mən düşmənin özünü də, məqsədli-məqsədsiz vurnuxmalarını da ilk dəfə döyüş növbətçiliyi aparanda görmüşəm.

Əsgərin fikrini leytenant İlkin Mirzəhüseynov tamamlayır:

- Döyüş növbətçiliyi hərbi xidmətin ən qürurverici mərhələsidi. Mahiyyəti baxımından diqqət deməkdi, cəsarət deməkdi, istənilən tərpənişin mahiyyətini dərk etmə bacarığı deməkdi. Əsgərlər bilir ki, düşmən döyüş növbətçiliyi ciddi təşkil edilən mövqedən içərilərə sıza bilmir. Sızma isə təxribatların başlanğıcı deməkdi...

- Müharibədə, müharibə şəraitində düşmənin hərbi niyyətini nəzarətdə saxlamaq üçün müəyyən ərazilərdə döyüş növbətçiliyi təşkil olunur. Düşmənin hər hansı ciddi tərpənişi hiss olunanda komandanlığın əmri ilə cavab tədbiri görülür. Düşmənin 2023-cü il sentyabrındakı təxribatı işğalçının son nəfəsi olmuşdu, - baş leytenant Vaqif Kərimlinin dedikləri hamının qürurunu kükrədir.

Təqvimdə payızdı, könlümüzdə yaz..

Əsgərin döyüş hazırlığı hərbi hissələrin, hərbi hissələrin döyüş hazırlığı ordunun döyüş hazırlığı deməkdi. Bu baxımdan əsgərin döyüş növbətçiliyi hərbi hissənin döyüşə hazır olması deməkdir. Əsgərlər döyüş növbətçiliyinə bu dərklə çıxır. Düşüncələrimin gerçəkliyini döyüş növbətçiliyinə gedən əsgərlərin baxışlarında da görürəm.



Xatırlayıram və xatırladıram ki, İkinci Qarabağ müharibəsindən əvvəl Lələtəpədə döyüş növbətçiliyindən qayıdan əsgərlə söhbətləşirdim. Ovucunda torpaq vardı. İkimizin də baxışlarımız bir ovuc torpağın köynəyindən keçəcəkdi sanki. Əlim əsgərin çiyninə enmişdi. "Bir ovuc torpaq da Vətəndi!..", - demişdim. Əsgər bir qarşı tərəfə baxmışdı, bir bizə, bir də ovucundakı dənəbir torpağa. "Döyüş növbətçiliyi bunun üçündü...", - demişdi...

Xatırlatmalarım əsgərləri duyğulandırır. Bu duyğulanma Azərbaycan əsgərinin mənəvi kamilliyinin qürurunun duyğulanmasıdı, hərbi xidmətə, dövlətə, Vətənə sevgi olduğu üçün boyu hər yerdən görünür.

- İkinci Qarabağ müharibəsi tarixi Zəfərimizlə başa çatandan sonra bəzi mövqelərdə Azərbaycan əsgərinin döyüş növbətçiliyi davam edir, - əsgər İbrahim Bəkirov belə deyir.

Əsgər Pünhan Səlimov da söhbətə qoşulur, dedikləri bayaqdan bəri yaşadığımız ovqatın ruhunun haləsinə dönür:

- Döyüş növbətçiliyi Azərbaycan əsgərinin ürəyində davam edir. Əsgər hərbi xidmətin ilk günündən tərxis olunana kimi döyüş növbətçiliyindədi...

İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş Daşaltıda vətənpərvərlik tədbirində Vətən Müharibəsi Qəhrəmanı kapitan Ramazan Hudulov demişdi ki, döyüş növbətçiliyi düşməni nəzarətdə saxlamaq üçündü, döyüş düşməni məğlub etmək üçün. Döyüş növbətçiliyi ilə döyüş arasında bir tətik sıxma fərqi var. Daşaltıda deyilən, sədaqətlə yaşadılan fikir döyüş növbətçiliyi aparan əsgərlərə könül xoşluğu verir.

- Döyüş növbətçiliyində müəyyən ərazini nəzarətdə saxlayırıq, mühafizə edirik, düşmənin mövqelərini müntəzəm izləyirik, şübhəli hərəkətlərini, tərpənişlərini duyanda təlimata müvafiq qərar qəbul edirik.

Baş leytenant Vaqif Kərimli əsgərlərin düşüncələrinin Vətən sevgisindən rişələndiyini, Hərbi Nizamnamələrlə tənzimləndiyini, hərbi xidmətlə formalaşdığını deyir, onu da bildirir ki, bu mövqedə də döyüş növbətçiliyi yüksək səviyyədə təşkil olunur.

2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusunun hissələri döyüş növbətçiliyindən döyüşə başlamışdı, düşmənin hücumunun qarşısı bölmələrimizin sayıqlığı nəticəsində qətiyyətlə alınmışdı. Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə əks-hücuma keçmişdi.

İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun tarixi Zəfəri ilə başa çatdı. Yəni, tarixi Zəfər Azərbaycan əsgərinin döyüş növbətçiliyi ilə başlayıb, ilk gülləni döyüş növbətçiliyi aparan əsgərlərimiz atıb. Döyüş növbətçiliyinin qüdrəti budur...

İkinci Qarabağ müharibəsindən əvvəl ön xətdə aparılan döyüş növbətçiliyi ilə tarixi Zəfərdən sonra aparılan döyüş növbətçiliyinin mahiyyəti eynidir: Torpaqları qorumaq. Birində atəşkəs razılaşması olsa da, müharibəydi, düşmən düşmənliyindəydi, həmlələrlə, hücumlarla hərbi əməliyyatlar aparmaq istəyirdi, Azərbaycan əsgərinin döyüş növbətçiliyi bunun qarşısının alınması üçün aparılırdı. Azərbaycan əsgəri torpaqlarımızı qoruya-qoruya Ali Baş Komandanın döyüş



əmri ilə işğal olunmuş torpaqlarımızı azad edəcək döyüşləri gözləyirdi. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun adını daşıyan mövqedə - postda əsgərlərdən birinin dediklərini İkinci Qarabağ müharibəsinə kimi unutmamışdım, indi də unutmamışam. Əsgər demişdi ki, hərbi xidmətə döyüş növbətçiliyi ilə başlamışam, hərbi xidmətimi Ali Baş Komandanın döyüş əmri ilə davam etdirmək, qaliblər sırasında tamamlamaq istəyirəm.

Müharibə ordumuzun qələbəsi ilə başa çatandan sonra döyüş növbətçiliyi Azərbaycanın ərazi bütövlüyünün tam bərpa edilməsinə görə təşkil edilirdi, döyüş növbətçiliyi həm də döyüş əzmi ilə aparılırdı. İndi, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunandan sonra döyüş növbətçiliyi Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi üçün aparılır. Baş leytenant Vaqif Kərimli deyir ki, döyüş növbətçiliyi aparan əsgərlərimizdən biri ilk döyüş növbətçiliyindən sonra demişdi ki, yaxşı əsgər tərxis edildikdən sonra mülki həyatda da Vətən naminə döyüş növbətçiliyi aparan əsgər kimi ayıq-sayıq, məsuliyyətli, diqqətli olur. Biz yaxşı əsgər, nümunəvi əsgər kimi xidmət edirik, tərxis edildikdən sonra çalışacağımız sahənin əsgəri olacağıq. Əsgərin düşüncələrində hərbi xidmətə, bu baxımdan döyüş növbətçiliyinə, deməli, Vətənə böyük sədaqət duyulurdu. İndi bu mövqedə xidmət edən əsgərlərimiz də belə düşünür...

Duyulan qar havası döyüş növbətçiliyi aparan əsgərlərimizi narahat etmir. Neçə il əvvəl ilin bu vaxtlarında Kəlbəcərdə kəlmələşdiyimiz əsgərlərə demişdim ki, təbiətin dörd fəslini siz ruhunuzla bir fəsilə cəmləyirsiniz. Bu, hərbi xidmət fəsilidi. Yayda isti, bürkü, qışda şaxta, sovruq, sazaq sizə yaxın düşə bilmir. Bu söhbəti və bu deyimi bu gün döyüş növbətçiliyi aparan əsgərlərə də deyirəm. Fikrim bəyənilir...

Əsgər Ehtiram Təhməzov hərbi xidmətə Bərdə rayonundan çağırılıb, 16 aydı hərbi xidmətdədi. Döyüş növbətçiliyindən qayıdıb. Ehtiram qürurla hərbi xidmətdən, döyüş növbətçiliyindən danışır: "Döyüş növbətçiliyində sən olursan, müşahidə etdiyin ərazi olur, bir də düşüncələrin. Sən döyüş növbətçiliyində Vətəni təmsil edirsən. Ona görə də döyüş növbətçiliyi əsgər üçün hərbi xidmətin ən məsuliyyətli, ən duyğusal anları olur...".

Əsgərlərin dediklərini həmişə xoş ovqatla xatırlayacam:

Əsgər Fərid Çıraqov:

- Hərbi xidmətin ilk gününü, Hərbi And içdiyim günü, qoşunlara xidmətə gəldiyim günü və döyüş növbətçiliyi apardığım günləri heç zaman unutmayacam. Döyüş növbətçiliyi aparanda düşmənlə üz-üzə dayananda mənə elə gəlir ki, Vətəni təmsil edirəm.

Əsgər Elnur Əliyev:

- Döyüş növbətçiliyi hərbi xidmətin ən qürurverici mərhələsidi.

Əsgər Tural Məmmədov:

- Döyüş növbətçiliyi diqqət deməkdi, sayıqlıq, cəsarət deməkdi, düşmənin istənilən tərpənişinin səbəbini dərk etmə bacarığı deməkdi.

Əsgər Nicat Həsənov deyir:

- Biz də bilirik ki, düşmən döyüş növbətçiliyi ciddi təşkil edilən mövqedən çəkinir, ehtiyat edir.

***Aşırımdan - əsgərlərimizin döyüş növbətçiliyi apardığı mövqedən enirik. Tək ağacın yanına çatanda bir anlığa dönüb arxaya baxıram. Xəyalən əsgərlərimizə deyirəm ki, Vətənin ağacı da, daşı da sənin niyyətinin əsgəridi. Dağı da, daşı da, ağacı da əsgərləşən xalq ən güclü xalqdı. Xalqımız kimi!..***

**Rəşid HÜSEYNOV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Hərb tariximizi yaşadan muzey

**Azərbaycan xalqının Ümummilli Lideri Heydər ƏLİYEV:**

*"Bizim xalqımızın böyük tarixi, qəhrəmanlıq səhifələri ilə dolu olan tarixi məlumdur. Bizə də məlumdur, dünyaya da məlumdur. Əsrlər boyu dəfələrlə xalqımız yadelli qəsbkarlarla üzləşib, qarşılaşıb və dəfələrlə döyüşə qalxıb, torpaqlarımızı müdafiə edib, öz milli mənliyini qoruyub saxlaya bilibdir".*

Ulu tarixin daş yaddaşında odlar yurdu Azərbaycan döyüş, hərb meydanı olması ilə əbədiləşib. Bu daşlaşmış köklər üzərində Azərbaycanımızın şanlı hərb tarixi yazılaraq bu günümüzə çatdırılıb. Dədə Qorqud eli məğlubedilməz Koroğlunu, Qazan xanı, ordu sərdarları Cavanşiri, Babəki, Cavad xanı, Qaçaq Nəbini boya-başa yetirib. Onlar yadelli işğalçılara, zülmkarlara qarşı mübarizədə xalqımızın xilaskarlarına çevriliblər. Sərkərdə Babək alınmaz Azərbaycan adlı döyüş qalasının divarlarına "Bir gün azad yaşamaq 40 il qul kimi yaşamaqdan yaxşıdır" sözlərini əbədi həkk edib. Qəhrəmanlıq tariximizə yazılan və bu günümüzə gəlib çatan o kəlmələr xalqımızın əsrlər boyu qəsbkarlara qarşı apardığı azadlıq mücadiləsinin şüarı kimi nəsildən-nəslə keçib. Sərkərdəlik, qəhrəmanlıq, torpaq, Vətən heysiyyatı xalqımızın milli-mənəvi dəyərlərinin fövqündə dayanır. Əcdadlarımızın, ata-babalarımızın nəsillərə miras qoyduğu bu dəyərləri xalqımız hər zaman qoruyub.



Uzaq keçmişimizə səyahət edək, tarixin yazdıqlarına nəzər salaq. Qədim yunan tarixçisi və coğrafiyaşünası amasiyalı Strabonun (e.ə. 63-cü il-b.e. 23-cü il) yunan dilində qeydə aldığı "Coğrafiya" əsərində deyilirdi: "Midiya iki hissəyə bölünür. Bir hissəsi böyük Midiya adlanır… O biri hissə Atropat Midiyasıdır. İkincisi öz adını sərkərdə Atropatdan götürüb. O Atropatdan ki, böyük Midiyanın bir hissəsi olan bu ölkənin də makedoniyalıların əsarətinə düşməsinə yol verməmişdi. Çar elan edilən Atropat, doğrudan da, öz yurdunu müstəqil bir ölkəyə çevirmişdi və onun ailəsində varislik hələ də davam edir… Atropatena hərbi qüvvə mənasında çox sanballı ölkədir, çünki o, 10 min süvari və 40 min piyada meydana çıxara bilir".

IX əsrin əvvəllərində Azərbaycanda məzdəkilər hərəkatı zəminində təşəkkül tapmış xürrəmi ideologiyası Babəkin başçılığı ilə yeni vüsət alır. X yüzilliyin ərəb tarixçisi İbn ən-Nədim yazırdı: "Babəkin qoşunlarının sayı o dərəcədə artdı ki, piyadalar istisna olunmaqla yalnız süvarilər 20 min nəfərə çatdı".

Bu gün hərb tariximizin keçmişinə nəzər saldıqda görürük ki, Azərbaycan coğrafiyası daima yadelli işğalçıların hücumlarına məruz qalıb, düşmən xalqımızın mübarizə əzmini daima qırmağa can atıb. Lakin xalqımız öz torpaqlarının azadlığını, ərazi bütövlüyünü, istiqlaliyyətini zaman-zaman hərb meydanlarında canı, qanı bahasına qorumağı bacarıb. Zaman keçdikcə qəhrəmanlıq dolu şanlı hərb tariximizin şərəfli səhifələri yazıldı, yeni mərhələləri yaşandı. İnkişaf mərhələləri bir-birini əvəz etdikcə hərb tarixinin araşdırılmasına, öyrənilməsinə və bununla da hərb elminin təşəkkül tapmasına zəmin yarandı. Xalqımızın sərkərdə oğulları Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski, Hüseyn xan Naxçıvanski, Cəmşid xan Naxçıvanski, Həbib bəy Səlimov, İbrahim ağa Usubov, İbrahim ağa Vəkilov və başqa generalların şan-şöhrətli cəbhə yolları Azərbaycanın hərb tarixinin səhifələrində öz əksini geniş şəkildə tapdı. O şöhrətli generallarımızın, hərb xadimlərimizin sayəsində müasir Azərbaycan Ordusunun təməl daşı qoyuldu.




Xalqımızın hərb tarixinin qürur və fəxr mənbəyi olan Azərbaycan Ordusu bu gün dünyanın ən güclü orduları sırasındadır. Ən müasir silah və hərbi texnikalarla təchiz edilmiş qüdrətli ordumuz şanlı tarixi keçmişinə söykənərək, uğurlarını gündən-günə artırır.

Zaman-zaman yazılan hərb tariximizin həqiqətlərinin, döyüş meydanlarında qazanılan qələbələrimizin gələcək nəsillərə geniş təbliğ olunması çox vacibdir. Bu şərəfli işin ağırlığı və məsuliyyəti daha çox Müdafiə Nazirliyinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Hərb Tarixi Muzeyinin üzərinə düşür. 32 ildir ki, Azərbaycan Hərb Tarixi Muzeyi milli-mənəvi dəyərlərimizi, xalqımızın sərkərdəlik, qəhrəmanlıq, şanlı hərb tarixini təbliğ edir. Qeyd edim ki, muzey 29 oktyabr 1992-ci ildə keçmiş "Salyan kazarması" deyilən, hazırda "Qızıl Şərq" hərbi şəhərciyi adlanan ərazidə yerləşmiş keçmiş sovet ordusuna məxsus 295-ci motoatıcı diviziyanın "Döyüş şöhrəti" muzeyinin bazasında yaradılıb. Birinci Qarabağ müharibəsinin getdiyi dönəmlərdə qurulmuş muzeyin birinci ekspozisiyasında xalqımızın hərb sənətini yaşadan qədim silahların (ox ucluqları, nizələr) və qəhrəmanlıq tarixini əks etdirən eksponatların nümayişi olub.

Hazırda muzeyin daxili ekspozisiyası 2004-cü ildə bərpa edilərək istifadəyə verilən tarixi binada yerləşir. Bina ötən əsrin əvvəllərində hərbi məqsədlər üçün inşa olunub. Daxili ekspozisiyada 2007-2015-ci illər və 2018-2020-ci illərdə bədii-tərtibat işləri aparılıb. Muzeyin ekspozisiya quruluşunu təşkil edən mövzu planında Azərbaycanın qədim dövrdən müasir dövrümüzədək hərb tarixinin öyrənilməsinə, təbliğinə və vətənpərvərlik ideyalarının gücləndirilməsinə xidmət edən eksponatların toplanması nəzərdə tutulub. Toplama işləri sayəsində muzey öz eksponatlarının sayını 13 minə çatdırıb. Daxili ekspozisiyada 13 zal fəaliyyət göstərir: “1747-1918-ci il Qədim və erkən orta əsrlər dövrü”, “1918-1920-ci il Azərbaycan Xalq Cümhuriyyəti dövrü”, “1920-1939-cu il Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalı” (28 aprel 1920-ci il), “1939-1945-ci il İkinci Dünya müharibəsi”, “Müasir dövr (1992-2018-ci illər)”, “Heydər Əliyev və ordu quruculuğu”, “Quru Qoşunları”, “Hərbi Hava Qüvvələri”, “Hərbi Dəniz Qüvvələri”, “Azərbaycan Ordusunun Beynəlxalq Hərbi Əməkdaşlığı” zalları ekspozisiya mövzu planına uyğun şəkildə yaradılıb. O cümlədən ordumuzun həyata keçirdiyi uğurlu antiterror əməliyyatı və ZƏFƏR zallarında ekspozisiya quruculuq işləri görülür. Ümumilikdə, daxili ekspozisiyada 5 mindən çox eksponat mühafizə və nümayiş olunur. 2007-ci ildən muzeyin ziyarətçilərinin ümumi sayı 47 135 nəfərdir. İl ərzində isə muzeyin 5000-7000 aralığında ziyarətçisi olur.





XX əsrin 60-cı illərinin sonlarından başlayaraq, Azərbaycan Ordusunun yaranmasında və milli hərbçi kadrların hazırlanmasında əvəzsiz xidmətləri olan Ümummilli Lider, Əbədiyaşar Ali Baş Komandan Heydər Əliyevin xalqımıza həsr etdiyi və təlatümlərdən, fırtınalardan keçmiş ömür yolundan bəhs edən "Heydər Əliyev və ordu quruculuğu" zalının ekspozisiya quruluşu xronoloji ardıcıllığı ilə seçilir. 2006-cı ildə Heydər Əliyev Fondunun təşkilati dəstəyilə hazırlanmış zalın ekspozisiya quruluşunda Ulu Öndərin müasir Azərbaycan Ordusunun qurucusu olduğu və məhz onun sayəsində təşəkkül tapması bir daha təsdiqlənir.

Muzeyin emalatxanasında hazırlanan qədim və erkən orta əsrlər dövrünə aid hərb sənətinin nümunələri, döyüş arabaları, arxeoloji qazıntılar nəticəsində aşkarlanmış ox ucluqları, nizələr, qalxan və qılınclar, qədim Atropatena dövlətinin hökmdarı Atropatın heykəli, müdafiə istehkamı "Oğlanqala"nın maketi, XVI əsrdə mövcud olmuş Azərbaycan Səfəvilər dövlətinin hökmdarı "Şah İsmayıl Xətai öz qoşunu ilə birlikdə" rəsm əsəri və 612-ci ildə midiyalıların babillərlə ittifaqda Assuriya üzərində qələbəsinə həsr edilmiş "Zəfər qapıları" və digər eksponatlar qədim və erkən orta əsrlər dövrü zalının ekspozisiyasında nümayiş olunur.

"1918-1920-ci illər Xalq Cümhuriyyəti" zalında Azərbaycan Ordusunun görkəmli hərb xadimləri S.Mehmandarov və Ə.Şıxlinski kimi sərkərdələrin və onların məsləkdaşlarının xalqımız qarşısında gördükləri böyük işlər haqqında yazılmış əsərlər, onların sədaqəti və yaradıcı xidmətlərinin bariz nümunələri, dövrə məxsus hərbi qulluqçuların günlük, mərasim, eyni zamanda, süvari geyim formaları, süngü və silahlar, Qafqaz İslam Ordusunun Bakını bolşevik-daşnak qüvvələrindən azad etməsini əks etdirən əməliyyat xəritəsinin sxemi və digər eksponatlar qorunur.

**(Ardı 5-ci səhifədə)**

# Hərb tariximizi yaşadan muzey

(Əvvəli 4-cü səhifədə)

"1920-1939-cu illər" zalında Azərbaycanda antisovet üsyanlarını əks etdirən divar boyu reproduksiya yerləşdirilib. Burada da dövrə aid revolver "Naqan", pulemyot silahları, Dövlət Təhlükəsizliyi Xidmətinin arxivindən əldə edilmiş repressiyaya məruz qalmış hərbi qulluqçuların həbs olunma, dindirilmə sənədlərinin surətləri və görkəmli diviziya komandiri C.Naxçıvanskinin şəxsi işi nümayiş etdirilir.



İkinci Dünya müharibəsində faşist Almaniyasına qarşı mübarizədə həm ön, həm də arxa cəbhədə fədakarlıq nümunələri göstərmiş həmvətənlərimiz haqqında toplanan materiallar, orden və medallar, üçkünc əsgər məktubları, dövrə aid silah nümunələri, şəxsi əşyalar muzeyin qiymətli eksponatları hesab olunur. İki dəfə Sovet İttifaqı Qəhrəmanı, Tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun şəxsi əşyalarından ibarət yaradılan ekspozisiya guşəsi, həmçinin Qərbi və Cənub-Şərqi Avropada alman faşistlərinə qarşı partizan hərəkatında döyüşən soydaşlarımız haqqında məlumatlar ziyarətçilərdə böyük maraq doğurur.

Tarixi qələbələrimizlə başa çatan Aprel döyüşləri, Günnüt əməliyyatı, 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı zamanı erməni işğalçılarına qarşı döyüşən Vətənimizin şəhid övladlarına aid şəxsi əşyalar, mühasirədə olmuş və yandırılmış Xocalı şəhərinin maketi, "Müharibənin bir anı" dioraması, əməliyyat xəritələri, döyüş sxemləri, düşməndən hərbi qənimət kimi götürülən artilleriya qurğuları - minaatanlar, Quru Qoşunlarına, Hərbi Hava Qüvvələrinə, Hərbi Dəniz Qüvvələrinə aid geyim dəstləri, fərqlənmə döş nişanları, Azərbaycanın şəhid Milli Qəhrəmanları Şikar Şikarovun, Şirin Mirzəyevin, şəhid pilot Rəşad Atakişiyevin şəxsi əşyaları və başqa eksponatlar muzeyin digər zallarında mövzu ekspozisiya planına uyğun şəkildə yerləşdirilib.

Muzeyin zallarını bir-bir gəzdik. Sanki, Azərbaycanın qədim dövrdən müasir dövrədək olan hərb tarixi gözlərimiz önündən kino lenti kimi keçdi. Nəhayət, muzeyin sonuncu zalında - "Zəfər" zalında bədii-tərtibat işlərinin gedişatını izlədik. Zalda 15 stend üzrə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin 27 sentyabr 2020-ci ildə 44 günlük Vətən müharibəsində ərazi bütövlüyümüzün bərpa olunması məqsədilə xalqa müraciətindən sonra qismən səfərbərlik elan olunmasından sonadək ordumuzun apardığı döyüş əməliyyatları, zabit və əsgərlərimizin peşəkarlığı, vətənpərvərliyi, işğaldan azad olunmuş ərazilərimizdə üçrəngli Dövlət Bayrağımızın dalğalanması, bərpa-quruculuq işlərinin ardıcıllıqla əks olunması nəzərdə tutulub. İkinci Qarabağ müharibəsinin tarixi əhəmiyyətində xüsusi yer alan "Şuşa" əməliyyatına həsr olunmuş "Şuşa" maketi də "Zəfər" zalında yerləşdiriləcək.



Ziyarətçilərin həmişə marağında olan və muzeyin ərazisində yerləşən "Açıq Səma altında ekspozisiya" müdafiə nazirinin 12 iyul 2004-cü il tarixli 324 nömrəli əmri ilə 3 gün ərzində formalaşdırılıb. Burada nümayiş etdirilmək üçün Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələrinə aid zirehli texnikalar, iriçaplı artilleriya qurğuları, döyüş təyyarələri və gəmiləri yerləşdirilib. Ekspozisiyanın mühafizəsi, qonaqların daha yüksək səviyyədə qarşılanması məqsədilə ərazidə geniş abadlıq işləri aparılıb. "Açıq Səma altında ekspozisiya"da 132 ədəd müxtəlif növ hərbi texnika nümayiş etdirilir. Sonuncu olaraq, XVII-XVIII əsrlərdə kustar üsulla hazırlanmış hərbi dənizçilik tarixində yer alan 2 ədəd top qurğusu və ötən il Xankəndi şəhərində Ali Baş Komandanın rəhbərliyi ilə keçirilən hərbi paradda nümayiş olunmuş "Zəfər" plakatı ekspozisiyaya daxil edilib.

Muzeyin daxili ekspozisiyasının yaradılması üçün AMEA-nın Abbasqulu ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun, Bakı Dövlət Universitetinin, Milli İstiqlal Muzeyinin, Azərbaycan Milli Tarix Muzeyinin tarixçi alimləri quruculuq işlərinə cəlb olunaraq, Müdafiə Nazirliyinin Mərkəzi Arxivi və Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar arxivi ilə əlaqələr yaradılıb. Ekspozisiyada qədim dövrdən müasir dövrədək hərb tariximizin inkişaf mərhələləri geniş təhlil olunub və xronoloji ardıcıllıqla əks etdirilib.

Muzeydə mütəmadi olaraq tariximizi, mədəni irsimizi, qəhrəmanlıq ənənələrimizi təbliğ edən və öyrənən ümumrespublika səviyyəli elmi-praktik konfranslar, elmi seminarlar, tədbirlər keçirilir, mühazirələr dinlənilir. Bununla da muzey xalqımızda hərbi vətənpərvərlik hisslərinin formalaşdırılmasına və gücləndirilməsinə xidmət edir, müxtəlif dövrləri özündə birləşdirən hərb tariximizin qəhrəmanlıq səhifələrini, tarixi şəxsiyyətlərimiz, xüsusilə, Azərbaycan Ordusunun yaradılması və inkişaf tarixi, Birinci və İkinci Qarabağ müharibələrində ordumuzun fədakar hərbi qulluqçularının iştirakı, aparılmış döyüş əməliyyatları və nəticələri haqqında məlumatları canlı eksponatlar vasitəsilə cəmiyyətə çatdırır.

Son illərdə muzey öz fəaliyyətini daha da konkretləşdirərək, "Azərbaycan Ordusunun ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda fədakarlığının təbliği" mövzusunda bir sıra tədbirlər, səyyar ekspozisiyalar hazırlayıb və həyata keçirib. 44 günlük Vətən müharibəsində hərbi hissələrimizin rəşadətini özündə əks etdirən sənədli filmlərin çəkilməsində, yeni rəsm əsərlərinin ərsəyə gəlməsində də yaxından iştirak edib.



Azərbaycan Hərb Tarixi Muzeyində 2007-ci ildən Elmi-metodiki şura fəaliyyət göstərir. Şura AMEA-nın A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin alim heyətindən təşkil olunub.

Elmi-tədqiqat işi sahəsində öz fəaliyyətini genişləndirən muzeydə dərs vəsaitləri və metodiki tövsiyələr hazırlanır. Belə ki, 2019-cu ildə Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin tapşırığına əsasən, Milli Müdafiə Universitetinin alimləri ilə birgə "Azərbaycan hərb tarixinin oçerkləri" kitabı hazırlanıb çapa təqdim edilib.



2020-ci ildə muzeyin Elmi-metodiki şurasının alim və hərbçi heyəti tərəfindən ordu-da dərs vəsaiti kimi istifadə edilməsi üçün kitab hazırlanıb və müsbət rəylə qiymətləndirildikdən sonra çapa təqdim olunub.

O cümlədən muzeydə Birinci Qarabağ müharibəsində aparılan döyüş əməliyyatlarının (20-dən çox) sxem və xəritələri, döyüşdə iştirak etmiş hərbi hissələrin şanlı döyüş yoluna həsr olunmuş kitabçalar hazırlanıb.

Muzeyin əlaqələri daha da genişlənərək, fəaliyyət istiqamətləri müəyyənləşdirilib. Belə ki, muzeyin kollektivi 2020-ci ildə Zəfərin qazanılmasından sonra dövlət başçısının müvafiq Sərəncamına əsasən yaradılmış "Qənimətlər Parkı"nın bədii-tərtibatında və "Zəfər" muzeyinin hazırlanmasında da yaxından iştirak edib. Eyni zamanda, muzeyin elmi heyəti Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrində dövlətçilik ənənələrimiz və tarixi şəxsiyyətlərlə bağlı mütəmadi olaraq, ictimai-siyasi hazırlıq dərsləri hazırlayır və keçirir.

2018-ci ildən muzey Müdafiə Nazirliyini beynəlxalq tədbirlərdə də layiqincə təmsil edir. ADEX Beynəlxalq Müdafiə Sərgisində 2020-ci ildə "Azərbaycan silahının təkamülü", 2022-ci ildə "Zəfərimiz silahların izi ilə", 2024-cü ildə isə "Zəfərimiz ANBAAN!" adlı ekspozisiyalarla çıxış edib və ən çox ziyarətçisi olan sərgi kimi diplom və sertifikata layiq görülüb.

Azərbaycanda səfərdə olan və muzeyi ziyarətə gələn bir çox xarici ölkə ordularının rəhbərlərinin ürək sözləri muzeyin xatirə kitabında öz əksini tapıb.

Azərbaycan Hərb Tarixi Muzeyi Müdafiə Nazirliyinin ölkəmizlə beynəlxalq hərbi əməkdaşlığı təmsil edən nümayəndə heyətlərinin Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan muzey və qoruqlarını ziyarət etməsi üçün mütəmadi olaraq həyata keçirir.

Azərbaycan Ordusunun yaradılmasının və öyrədilməsinin təbliği Azərbaycan Hərb Tarixi Muzeyinin əsas vəzifəsidir. Milli-mənəvi dəyərlərimizin, şanlı hərb tariximizin, Böyük Zəfərimizin keşikçisi olan muzey xalqımız üçün sanballı hərb əsəri kimi əvəzolunmaz qaynağa çevrilməlidir. Hərb tariximizin Zəfər salnaməsini yaddaşlara köçürən bu tarixi abidənin sərkərdəlik ənənələrimizin öyrənilməsində əhəmiyyətli rolu danılmazdır.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# NATO nümayəndə heyəti ilə görüş keçirilib



Azərbaycanın NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramına qoşulmasının 30 illiyinə həsr olunmuş elmi-praktik konfrans çərçivəsində Alyansın Baş Katibinin əməliyyatlar üzrə köməkçisinin müavini xanım Burcu Sanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.

Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi polkovnik Elçin Abdullayev NATO nümayəndə heyəti ilə görüşüb.

Görüşdə NATO ilə əməkdaşlığın əsas hüquqi bazası hesab olunan "Fərdi uyğunlaşdırılmış tərəfdaşlıq proqramı" (ITPP) layihəsində göstərilən öhdəliklərin icrası ilə bağlı cari vəziyyət və beynəlxalq təhlükəsizlik missiyalarında hərbi qulluqçularımızın iştirakı barədə danışılıb.

Həmçinin Azərbaycan Ordusu tərəfindən NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Ortaq Qüvvələr Birliyinə bəyan edilmiş müxtəlif qoşun növləri bölmələrinin hazırlığı, Tərəfdaşlığın Qərargah Vəzifəsi Konsepsiyası çərçivəsində Alyansın müxtəlif qərargah və strukturlarında xidmət edən hərbi qulluqçularımızın töhfələri barədə müzakirələr aparılıb.

Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı cənab Cəfər Hüseynzadənin də iştirak etdiyi görüş zamanı ölkəmizin NATO-nun etibarlı tərəfdaşı olduğu xüsusi vurğulanıb və əməkdaşlığın gələcək perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılıb.

# Hərbi pilotların peşəkarlığı artırılır



Cari ilin hazırlıq planına əsasən, Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) aviasiya vasitələri təlim-məşq uçuşlarını icra ediblər.

Əvvəlcə pilotların təlim uçuşlarının şərtləri və təhlükəsizlik qaydaları barədə nəzəri bilikləri yoxlanılıb, şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırılıb.

Uçuş heyətlərinin sağlamlıq vəziyyəti yoxlanıldıqdan sonra hərbi pilotlar Su-25 və Su-25 ML hücum təyyarələrinə nəzarət baxışı keçiriblər.

Plana uyğun olaraq, havaya qalxma və yerə enmə, müxtəlif hündürlüklərdə çətin pilotaj manevrləri, şərti düşmənə məxsus yerüstü hədəflərin koordinatlarının təyin edilməsi, eləcə də hava kəşfiyyatının aparılması və digər təlim tapşırıqları icra olunub.

Təlim uçuşlarının keçirilməsində başlıca məqsəd şəxsi heyətin döyüş vərdişlərinin təkmilləşdirilməsindən ibarətdir.

Qarşıya qoyulan tapşırıqlar hərbi pilotlar tərəfindən yüksək dəqiqlik və peşəkarlıqla yerinə yetirilib.

# Növbətçiliyin düzgün təşkili vacib amildir

Əsgərin gündəlik fəaliyyətlərindən biri də növbətçilikdir. Hər gün naryad təyin olunmazdan əvvəl onun təlimatı keçirilir. İstər bölükdə, istər avtomobil parkında, istərsə də digər xidmət yerlərində hərbi qulluqçuların sutkalıq naryadı hərbi hissədə daxili intizamın, səliqə-sahmanın yaradılmasına xidmət edir.

"N" hərbi hissəsində əsgərlərin sutkalıq naryadının aparılması ilə yaxından tanış olduq. Kapitan Əsəd Eminov bildirdi ki, bölükdə hər bir əsgərə xidməti vəzifələri aşılamaq onun başlıca vəzifəsidir. Qeyd etdi ki, əsgər yataqxanasında intizamın, səliqə-sahmanın yaradılması naryadda olan hərbi qulluqçuların əsas tapşırıqlarındandır. "Hərbi hissələrin və bölmələrin daimi yerləşmə yerlərində, düşərgələrdə və döyüş şəraitində yüksək döyüş hazırlıqlı olmalarını, qarşıya qoyulmuş döyüş tapşırıqlarını vaxtında və müvəffəqiyyətlə yerinə yetirmələrini, mühüm hərbi obyektlərin etibarlı mühafizəsini, bölmələrdə daxili qayda-qanunun saxlanmasını, bölmələrin silah və sursatının, əmlakının qorunmasını təmin etmək üçün döyüş və ümumqoşun nizamnamələrinin tələbləri əsasında müvafiq xidmətlər təşkil olunur. Nizamnamələrin tələblərinə uyğun təşkil olunan bu xidmətlərdə günün nizam qaydalarına ciddi riayət olunması, daxili qayda-qanunun saxlanması, silah və sursatın, digər əmlakın qorunması nəzarətdə saxlanılır", - kapitan Ə.Eminov dedi.



Zabit, həmçinin bildirdi ki, bu xidmətlərə əsgərlər növbəli şəkildə təyin olunurlar. Onlar tibbi müayinədən keçirilir, təyin olunduqları naryad növünün vəzifələri öyrədilir və naryada daxil olmazdan əvvəl təlimatlandırılırlar.

Bölməyə daxil olanda bölük növbətçisi qaydalar çərçivəsində zabitə məruzə edərək, şəxsi heyətin harada olması və hansı fəaliyyətləri icra etməsi haqqında məlumat verdi. Bölük növbətçisi baş əsgər Rauf Hacıyevin dəqiq və səlis məruzəsindən, komandirinin verdiyi suallara cəld şəkildə, əminliklə cavab verməsindən hiss olunurdu ki, o xidməti vəzifələrini yaxşı mənimsəyib və növbətçiliyi düzgün təşkil edir. Həmçinin ərazinin və yataqxananın gözoxşayan təmizliyi, otaqların səliqə-sahmanı Raufun nümunəvi xidmət aparmasının bir daha təsdiqi oldu.

Baş əsgər Rauf Hacıyev gün növbətçilərinin fəaliyyəti haqqında məlumat verərək dedi:

- Əsgər yataqxanasının girişində, dəhlizdə dolabın yanında dayanan gün növbətçisi yataqxanaya daxil olan hər bir kəs haqqında bölük növbətçisinə: "Növbətçi çıxışa!" - deyə məlumat verir. Bununla bərabər, əsgər yataqxanasının, silah və əşya otaqlarının da mühafizəsini təşkil edir. Gecə-gündüz burada dayanan əsgər ayıq-sayıq olur, müşahidə etdiyi hər bir hadisə ilə bağlı bölük növbətçisini məlumatlandırır.

Gün növbətçisi əsgər Kənan İmanovla həmsöhbət oldum. Kənan Azərbaycan Texniki Universitetinin məzunudur. O, dedi ki, üzərinə düşən vəzifələri mükəmməl öyrənməklə yanaşı, onlara ciddi riayət etməyə çalışır. Hərbi xidmətə gəldiyi gündən Vətən qarşısında övladlıq borcunu vicdanla, şərəflə yerinə yetirməyi qarşısına məqsəd qoyduğunu vurğulayır. Qeyd edir ki, məqsədimə çatmaq üçün komandirlərin öyrətdikləri hərbi bilikləri dərindən mənimsəməyə səy göstərir, bütün gündəlik fəaliyyətlərdə, eləcə də növbətçi olduqda nümunəvi olmağa can atır. Çünki hər birimiz nümunəvi xidmət edərək qalib və rəşadətli ordumuza layiqli əsgərlər olmalıyıq.

...Bölmədə növbətçiliyin və bütün növ fəaliyyətlərin qaydalar çərçivəsində, yüksək səviyyədə təşkil olunduğunu müşahidə etdik. Bütün xidmət növlərinin belə təşkili döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına xidmət edir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**



*Əsgər dostluğu*

# "Dostluğumuzu Vətənə sevgi yaradıb..."

Ən həssas, ən etibarlı, ən məsuliyyətlə yaşadılası münasibət dostluqdur. Dostluğu şərtləndirən başlıca amil səmimiyyətdir. Vətənə sədaqətlə xidmət edənlər, Hərbi Nizamnamələrin tələblərinə ciddi əməl edənlər, zabitlərin, komandirlərinin əmr və göstərişlərini məsuliyyətlə yerinə yetirənlər üçün dostluq elə səmimiyyət deməkdir...

Semrac Astarada böyüyüb boya-başa çatıb, Rahil Bərdədə. Semrac da, Rahil də Vətənin nə olduğunu ailədə duyub, məktəbdə müəllimlərinin söhbətləri ilə sevgiləşdirib.

Vətəni sevməkdən söz düşəndə həmişə akademik Xudu Məmmədovun bir kəlamını xatırlayıram: "Uşaqlara Vətəni sevməyi öyrətmək lazım deyil, siz onlara Vətəni tanıdın, özləri sevəcəklər". Semraca da, Rahilə də Vətəni tanıdıblar. Vətəni tanımanın sevgisi bu yeniyetmələrin də xarakterinin işığına dönüb. Bu işıqla orta məktəbi bitiriblər, çağırışçı yaşına çatıblar, hərbi xidmətə çağırılıblar, bu işığın yolgöstərənliyi ilə hərbi xidmətə gediblər...

Semrac Əliyevlə Rahil Sadıqovun əsgəri münasibətlərini əsgər dostluğuna Vətən kəlməsi - Vətənə sevgi çatdırıb: Hərbi xidmətin ilk günlərində asudə vaxtda söz sözü çəkəndə Rahil "Vətən mənə oğul desə, nə dərdim..." - deyib, Xalq şairi Məmməd Arazın ruhumuzun şeiri olan şeirinin misrasını Semrac tamamlayıb: "Mamır olub qayasında bitərdim". Baxışıblar. Gözəl şeirin yaratdığı gözəl ovqat ikisinin də ruhunu Vətən kəlməsinin müqəddəsliyinə kökləyib.

Əsgər Semrac Əliyevlə əsgər Rahil Sadıqovun əsgər dostluğu Vətənə sevginin ifadəsi olan şeirlə başlayıb. Aylar sonra onlar hərbi xidmətdən tərxis ediləcək, dostluqda tərxis olunma yoxdu...

- Dostluğumuz şeirlə başlayıb. Həmin anlarda Semracın həssas əsgər olduğunu duydum. Dediyimiz misralar elə bil dostluğumuza sədaqət andı oldu. O da nümunəvi xidmət edir, mən də, Vətəni o da sevir, mən də, o da "Vətən gözdü biz kirpik, Gözümüzün keşiyini çəkirik!" deyir, mən də, - əsgər Rahil Sadıqov belə dedi. Əsgərin səmimi kəlmələri səmimiyyətlə səsləndi, mənə də, digərlərinə də könül xoşluğu verdi. Bu ovqatla əsgər Semrac Əliyevə baxdım. Əsgər baxışlarımın sorğusunu duyubmuş:

- Bizim dostluğumuzun yaradıcısı Vətəndi - hərbi xidmətdəyik, Vətənə sevgidi - eyni sevgiylə xidmət edirik, duyğudu - Vətənə ad olan şeirləri ruhumuzun mehrabı bilirik. Bunların yaratdığı, yaşatdığı əsgər dostluğu son nəfəsdə də bitmir...

Əsgər dostluğunu həmişə anların tarixləşməsi bilmişəm. Mayor Teymur Qurbanəliyev nümunəvi xidməti əsgərlərin dostluğunun şərtlərindən biri adlandırdı. Manqa komandiri Semrac Əliyevin də, Rahil Sadıqovun da nümunəvi xidmət etdiyini dedilər...

Dostluq ünsiyyətdi, dostluq münasibətdi, inamdı, ehtiramdı - insani keyfiyyətlər sistemidi. Əsgər dostluğu xarakterdə bu sistemin könüldaşıdı. Vətənə sevgidən yaranan əsgər dostluğu kimi...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Heç kim unudulmur*

# Şəhid zabitin doğum günü qeyd olundu



*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Vətən Müharibəsi Qəhrəmanı şəhid mayor Elçin Mansurovun doğum günü qeyd olundu. Anım tədbirində Müdafiə Nazirliyinin nümayəndələri, şəhidin ailə üzvləri, yaxınları, kursant və döyüş yoldaşları, bir qrup şəhid ailəsi, ictimaiyyət nümayəndələri, məktəblilər və başqa qonaqlar iştirak etdilər.*

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin İdeoloji və Hərbi Kütləvi İş bölməsinin təlimatçısı kapitan Günel Dadaşova çıxış edərək şəhidin həyat və döyüş yolu haqqında geniş məlumat verdi. Qeyd etdi ki, torpaqlarımızın azadlığı uğrunda canından keçən Vətənimizin övladları heç zaman unudulmurlar. "Ən ali, müqəddəs və şərəfli zirvə olan şəhidlik zirvəsinə yüksələnlər sıramızda olmasalar da, qəlbərimizdə daima yaşayırlar. Vətənpərvərliyin ən ali məqamı şəhidlikdir. Bu ucalığa yüksələnlərin ömür yolu qısa olsa da, şərəfli və örnək sayılır. Belə şərəfli ömür sahiblərindən biri də mayor Elçin Elşən oğlu Mansurovdur. Onun şəhadətindən dörd il ötür. Yaşasaydı, bu gün qırx yaşını qeyd edəcəkdi. Elçin Mansurov 1984-cü il noyabrın 25-də Bakıda anadan olub. Əslən Yardımlı rayonunun Kürəkçi kəndindəndir. Orta məktəbi bitirdikdən sonra Elçin 2003-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olunub. O, ordumuzun Tovuz, Murovdağ, Göygöl və Füzuli rayonlarında yerləşən bölmələrində xidmət edərək, şərəfli zabit adını daima uca tutub. Xidmətində uğurlar qazanıb.

Vətənpərvərliyi, peşəkarlığı ilə fərqlənən mayor Elçin Mansurov 2020-ci il 27 sentyabrda 44 günlük Vətən müharibəsi başlayanda Füzuli istiqamətində gedən ağır döyüşlərə qatılıb. Onun rəhbərlik etdiyi bölmə bir neçə düşmən postunu ələ keçirərək, həmin mövqelərə bayrağımızı sancıb. Qorxmaz döyüşçü "Buğra dərəsi" adlanan ərazidə düşmən snayperi tərəfindən vurularaq şəhidlik zirvəsinə yüksəlib. İkinci Şəhidlər xiyabanında dəfn olunub. Şəhid zabitin qəhrəmanlıqlarla dolu ömür yolu gələcək nəsillərə nümunədir".

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə mayor Elçin Mansurov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.

Sonra qəhrəman zabitin ömür yolundan bəhs edən videoçarx tədbir iştirakçılarına nümayiş olundu.

Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin Şəhid Ailələri və Qadınlarla İş sektorunun müdiri, dövlət qulluqçusu Zümrüd Səmədova çıxış edərək vurğuladı ki, bu gün Elçinin qırx yaşı tamam olur. "O qısa, lakin şərəfli bir ömür yaşadı. Hər kəsə örnək bir ömür. Onun ailə üzvləri, doğmaları, döyüş yoldaşları bu gün şəhid qəhrəmanımızın ad gününü anım tədbiri ilə qeyd edir, onlar qəhrəman, fədakar, vətənpərvər oğul olan Elçinlə bağlı xatirələrini danışırlar. Mayor Elçin Mansurov Vətənini, dövlətini, xalqını ləyaqətlə sevən bir zabit olub. Elçin kimi qəhrəman, mərd, fədakar oğulların sayəsində 30 illik torpaq həsrətinə son qoyuldu. Respublikamızın ərazi bütövlüyü, suverenliyi tam təmin edildi. İndi işğaldan azad olunmuş ərazilərimizdə bərpa-quruculuq işləri aparılır. Doğma elindən, obasından ayrı düşmüş həmvətənlərimiz bu gün torpağına, yurduna geri dönür. Bütün şəhid analarının qarşısında baş əyirəm".

Anım tədbiri şəhid qəhrəmanın kursant yoldaşları polkovnik-leytenant Elsevər Hümbətov, mayor Anar Quliyevin Elçin Mansurovla bağlı xatirə çıxışları ilə davam etdi. Onlar Elçinin peşəkar, vətənpərvər, yüksək döyüş, mənəvi-psixoloji və fiziki hazırlıqlı bir zabit olduğunu vurğuladılar. Onun döyüş zamanı göstərdiyi qəhrəmanlıqlardan, qorxmazlığından danışdılar.



"Elçin qısa ömrünə bütün Azərbaycanın sevgisini sığdırdı. Doğum günün mübarək olsun, əziz şəhidimiz. Sən bizim qəlbimizdə daim yaşayacaqsan!"

Digər çıxış edənlər 44 günlük Vətən müharibəsinin Azərbaycanın dövlətçilik tarixində əhəmiyyətli rolunu vurğulayaraq, düşmən üzərində qazanılan Zəfərdən sonra ölkəmizin beynəlxalq aləmdə nüfuzunun daha da artmasını, sülhün, sabitliyin təminatçısına çevrildiyini xüsusi qeyd etdilər.

Elçin Mansurov adına 88 nömrəli məktəbin şagirdləri şəhidlərimizin xatirəsinə həsr olunmuş şeirlər səsləndirdilər.

Daha sonra qəhrəman şəhidin anası Məleykə Məcidova çıxış edərək, göstərilən yüksək diqqət və qayğıya, övladının adının daima uca tutulmasına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını ifadə etdi.

Sonda H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının solistlərinin təqdimatında vətənpərvərliyi, Böyük Zəfərimizi tərənnüm edən musiqilər səsləndirildi.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Moskvadakı Azərbaycan diasporunun nümayəndələri İkinci Dünya müharibəsi qəhrəmanının xatirəsini anıblar

Rusiya paytaxtının Azərbaycan diasporunun nümayəndələri - Moskva Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti Şurasının sədri Bəxtiyar Həsənov və onun müavini Qaşım Əliyev 1943-cü ildə Belarus torpaqlarında faşist işğalçıları ilə döyüşlərdə həlak olmuş həmyerlimiz Zəfər Qədimovun məzarını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, Zəfər Qədimov Belarusun Qrodno vilayətinin Mostovski rayonunun Kuriloviç kənd sovetinin Dubrovka kəndi yaxınlığındakı partizan qəbiristanlığında dəfn edilib. Burada 1943-1944-cü illərdə faşist işğalçılarına qarşı döyüşlərdə həlak olan daha 40 partizan, 2 Qızıl ordu əsgəri və 1943-1944-cü illərdə faşistlər tərəfindən işgəncələrə məruz qalan 20 dinc sakin dəfn edilib.

Qonaqları Mostovski Rayon İcraiyyə Komitəsinin sədr müavini Marina Davidik müşayiət edib. Nümayəndə heyəti məzarı üzərinə əklil və gül dəstələri qoyub, igid döyüşçünün xatirəsini ehtiramla yad ediblər.

Qəhrəmanın məzarı önündə çıxış edən B.Həsənov İkinci Dünya Müharibəsi qəhrəmanlarının xatirəsinə göstərdiyi diqqətə görə Belarus xalqına minnətdarlığını bildirib. "Biz fəxr edirik ki, faşizmə qarşı cəsarətlə və fədakarlıqla mübarizə aparan belə qəhrəmanlarımız var. Həmin dəhşətli illərdə babalarımız birləşərək qlobal şərlə mübarizə apardılar. Səfərimizin məqsədi həmyerlimizin xatirəsini ehtiramla yad etmək və gənc nəslə əsgərlərin qəhrəmanlığından bəhs etməkdir", - deyə Moskva diasporunun rəhbəri iştirakçılara müraciət edib.




O, həmçinin bildirib ki, Böyük Qələbənin 80 illiyi ilə bağlı Moskva Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti bir neçə layihə hazırlayır. Bunlardan biri də "Faşizm üzərində Qələbədə Bakı neftinin və Azərbaycan xalqının rolu" kitabının nəşridir. Bu nəşrdə adları o qədər də tez-tez eşidilməyən, lakin xatirəsi doğmalarının, dostlarının, həmvətənlərinin qəlbində əbədi olaraq yaşayan qəhrəmanlara xüsusi yer ayrılacaq. Həmin qəhrəmanlardan biri də Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Sədərək kəndindən olan Zəfər Qədimovdur.

Qeyd edək ki, diaspor nümayəndələri ilə birlikdə cəsur döyüşçünün nəvəsi Kamal Sadıxzadə də Mostovşinada olub.

Zəfər Qədimovun atası və babası da İkinci Dünya müharibəsinin iştirakçısı olublar, onun qardaşı Sultan isə müharibənin birinci ayında Krımda həlak olub. Ailəsi Zəfərin dəfn edildiyi yer haqqında mükafat siyahısından öyrənib: "Pobeda" partizan dəstəsinin 22 yaşlı igid döyüşçüsü, kiçik çavuş Qədimov Zəfər Məmməd oğlu ölümündən sonra "Qırmızı Ulduz" ordeni ilə təltif edilib.

Cəsarətli əsgərin xatirəsi bu abidəni himayə edən Ozerkovskaya orta məktəbinin pionerləri tərəfindən də ehtiramla yad edilib.

Kiçik serjant Zəfər Qədimov 1942-ci il iyunun 28-də Zelvenski, Slonimski, Mostovski və Dyatlovski rayonlarında fəaliyyət göstərən "Pobeda" partizan dəstəsinə daxil olur. Bu əraziyə yollanan qəhrəman döyüşçü müharibənin əvvəlində müharisirəyə alınan və ya geri çəkilən yüzlərlə Qızıl ordu əsgəri ilə eyni şəraitdə partizan dəstəsinin üzvü olub. Partizanlar azərbaycanlı dostlarını Belarus təbirində - Zaxara deyə çağırırdılar. O, bir il ərzində dəstənin tərkibində cəsarətlə döyüşüb, taqım komandiri olub. 1942-ci ilin noyabrında Kozloviçi kəndi yaxınlığında pusquda olarkən Zəfər düşmənin maşınını sıradan çıxarır və içindəki zabiti öldürərək mühüm məxfi sənədləri qərargaha çatdırır.

O, 1942-ci ilin dekabrında Dereçin kəndi uğrunda gedən döyüşlərdə xüsusi fərqlənib, burada Zelva stansiyası ilə rabitə xəttini kəsib və üç faşisti zərərsizləşdirib, habelə bir xaini əsir götürərək dəstəyə təslim edib.

1943-cü ilin fevral-mart aylarında Zəfər Qədimovun bölməsi düşmənin 5 qatarını relsdən çıxarıb, onlardan birini şəxsən özü partladıb. Dəstənin döyüş fəaliyyəti nəticəsində 2 kilometrdən artıq rabitə xətti, 4 lokomotiv, 60 vaqon sıradan çıxarılıb, 900-ə qədər faşist öldürülüb və yaralanıb.

Kiçik serjant Zəfər Məmməd oğlu Qədimov 1943-cü il iyunun 25-də Zelvenski rayonunun Ostrovo kəndi uğrunda döyüşlərdə qəhrəmancasına həlak olub.

# “Hərbçilər arasında I açıq Kikboksinq çempionatı” keçirilib



*Mərkəzi Ordu İdman Klubunun (MOİK) təmsilçiləri Türkiyə Respublikasının Antalya şəhərində keçirilən "Hərbçilər arasında I açıq Kikboksinq çempionatı"nda iştirak ediblər.*

Müdafiə Nazirliyi xəbər verir ki, yarışlarda MOİK-in zabiti Beynəlxalq Hərbi İdman Şurasında Azərbaycan nümayəndə heyətinin üzvü mayor Tofiq Niftəliyevin rəhbərliyi ilə təmsilçilərimiz müxtəlif çəki kateqoriyaları üzrə 7 qızıl, 1 gümüş və 4 bürünc medalı qazanıblar. Ümumilikdə, komanda hesabı üzrə MOİK təmsilçiləri 11 ölkə arasında birinci yerə layiq görülüblər.



Qeyd edək ki, çempionatda Azərbaycanla yanaşı, Almaniya, Bosniya və Herseqovina, Ekvador, Fransa, Monqolustan, Özbəkistan, Polşa, Qazaxıstan, Türkiyə və Taylandın hərbi qulluqçuları iştirak ediblər.

# İdman

## Basketbol üzrə Türkiyə millisi 26-cı dəfə Avropa çempionatına vəsiqə qazanıb



Kişi basketbolçulardan ibarət Türkiyə millisi Avropa çempionatına vəsiqə qazanıb.

Ergin Atamanın rəhbərlik etdiyi yığma B qrupunda Macarıstan seçməsini 81:76 hesabı ilə məğlub edərək növbəti dəfə bu uğura nail olub.

Bu nəticə ilə sona iki tur qalmış qrupu ilk "üçlük"də bitirməyi təmin edən "ay-ulduzlular" 26-cı dəfə Avropa çempionatında iştirak hüququ qazanıb.

Qeyd edək ki, 2025-ci ilin avqustun 27-dən sentyabrın 14-dək təşkil olunacaq turnirə Kipr, Finlandiya, Polşa və Latviya ev sahibliyi edəcək.

## AFFA rəsmisi növbəti dəfə UEFA-dan təyinat alıb



AFFA-nın Klubların Lisenziyalaşdırılması Departamentinin direktoru Elçin Məmmədov UEFA tərəfindən növbəti dəfə təyinat alıb.

O, UEFA Konfrans Liqasının IV turu çərçivəsində keçiriləcək "Dinamo" (Minsk, Belarus) - "Kopenhagen" (Danimarka) matçında cari mövsümdə yeni tətbiq olunan UEFA Matç Direktorunun (UEFA Venue Director) mentoru kimi fəaliyyət göstərəcək.

Qarşılaşma noyabrın 28-də Sumqayıtda yerləşən Mehdi Hüseynzadə adına stadionda baş tutacaq.

## Azərbaycanın güllə atıcısı Serbiyada gümüş medal qazanıb



Azərbaycanın güllə atıcısı Vladislav Kalmıkov Serbiyanın Smederevo şəhərində gənclər arasında keçirilən "Walther Youth Cup" turnirində gümüş medal qazanıb.

O, pnevmatik tapançadan 10 metr məsafəyə atəş üzrə final mərhələsində 235.0 xal toplayıb.

Qeyd edək ki, turnirdə 12 ölkədən 320 idmançı mübarizə aparıb.

## Bakıda idman gimnastikası üzrə ölkə çempionatı və birinciliyinə start verilib



Bakıda kişi idman gimnastikası üzrə 29-cu, qadın idman gimnastikası üzrə 8-ci ölkə çempionatı və birinciliyinə start verilib.

Milli Gimnastika Arenasında təşkil olunan yarışların ilk günündə balacalar (2015-2016), kiçiklər (2017-ci il), uşaqlar (2013-2014), yeniyetmələr (2011-2012), gənclər (2007-2010) və böyüklər (2006-cı il və daha böyük) yaş kateqoriyaları üzrə gimnastlar mübarizə aparıblar.

İdmançılar çoxnövçülük proqramında bacarıqlarını nümayiş etdiriblər. Qalib gələn gimnastlara medallarla yanaşı, diplom və hədiyyələr təqdim edilib.

Qeyd edək ki, ölkə çempionatına noyabrın 26-da yekun vurulub. Son yarış günündə idmançılar gimnastika atı, sərbəst hərəkətlər, dayaqlı tullanma, halqalar, paralel qollar və turnik üzrə proqramlarda qüvvələrini sınayıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar

## Hindistanda qaçaqmalçılıq yolu ilə gətirilən beş ton narkotik vasitə ələ keçirilib



Hindistanın təhlükəsizlik qüvvələri Andaman dənizində təxminən beş ton narkotik vasitə daşıyan balıqçı gəmisini yaxalayıb.

Hindistan Müdafiə Nazirliyinin bəyanatına əsasən, narkotik qaçaqmalçılığının qarşısını almaq üçün həyata keçirilən əməliyyata Sahil Mühafizə Xidməti və Hərbi Dəniz Qüvvələri cəlb olunub.

Bir müddət öncə ölkənin qərbində yerləşən Qucarat ştatı sahillərində təhlükəsizlik qüvvələri 700 kiloqram metamfetamin daşıyan gəmini ələ keçirmişdi.

ANI agentliyinin məlumatına görə, əvvəllər analoji dəniz əməliyyatları nəticəsində 3500 kiloqrama yaxın müxtəlif narkotik və psixotrop maddələr müsadirə edilib. Həyata keçirilən üç əməliyyat zamanı, həmçinin 11 nəfər İran və 14 nəfər Pakistan vətəndaşı saxlanılıb.

## "Bert" qasırğası Böyük Britaniyada insan tələfatına səbəb olub

"Bert" qasırğası Böyük Britaniya və İrlandiyada bir neçə insanın həyatına son qoyub.

İngiltərə və Uelsdə həftəsonu yağan yağış və qarın əriməsi daşqınlara səbəb olub. Uelsin şimalında itkin düşən şəxsin cəsədi aşkarlanıb. Hempşir qraflığında isə bir sürücü avtomobilinin üstünə ağacın aşması nəticəsində ölüb.



Güclü külək və daşqınlar səbəbindən Uelsin cənubunda fövqəladə vəziyyət rejimi elan edilib. Təbii fəlakət nəticəsində yüzlərlə evə zərər dəyib, təxminən 60 min ailə elektriksiz qalıb.

Böyük Britaniyanın Meteorologiya Agentliyinin məlumatına görə, qasırğa bu gün adadan uzaqlaşacaq.

## Vilnüsdə yük təyyarəsi yaşayış binasının üzərinə düşüb



Yük təyyarəsi Vilnüs Beynəlxalq Hava Limanına yaxınlaşarkən qəzaya uğrayıb.

Bu barədə aeroportun sözçüsü Marius Zelanius bildirib.

"DHL şirkətinin təyyarəsi ikimərtəbəli yaşayış binasının üzərinə düşüb. İlkin məlumata görə, təyyarədə iki pilot və iki şirkət əməkdaşı olub", - deyə o qeyd edib.

Pilotlardan biri xilas edilib. Təyyarədəki digərləri barədə hələlik məlumat yoxdur. Hadisə yerində yanğınsöndürənlər işləyir.

## Ukraynada müharibə dövründə odlu silahla törədilən cinayətlər 42 dəfə artıb



Ukrayna Daxili İşlər Nazirliyi 2024-cü ildə silah və döyüş sursatı ilə bağlı cinayətlərin sürətlə artdığını və rekord həddə - 11 minə çatdığını qeyd edib.

Bu barədə "İnterfaks-Ukrayna" agentliyinə müsahibəsində Ukrayna daxili işlər nazirinin müavini Leonid Timçenko bildirib.

Onun sözlərinə görə, Ukraynada müharibənin 3 ili ərzində silahdan istifadə edilən cinayətlərin sayı 42 dəfə artıb. Belə ki, 2021-ci ildə silah və döyüş sursatı ilə bağlı cinayət cəmi 273 fakt idisə, bu il göstərici 11 mini keçib.

O əlavə edib ki, bu günə olan məlumata görə, 2024-cü ildə artıq 11 489 belə cinayət qeydə alınıb.

**AZƏRTAC-ın materialları əsasında**

Baş leytenant Tağıyev Əli Tağı oğluna verilmiş MN № 0056250 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Quluzadə Mənsur Mənsim oğluna verilmiş SQ № 0026824 nömrəli hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Yusibov Səyyad Elman oğluna verilmiş SX № 0771961 nömrəli hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Məsul katib
mayor
Ceyhun CƏFƏRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
kapitan
Mahmud MÖHBALIYEV

Lisenziya № 361
Sifariş № 686
Nüsxə 4650